

# Şanlı Qələbəmizi reallaşdıran tarixi hadisə

***"Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa ili" elan edirəm". Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə müraciətində səsləndirdiyi bu fikir həm xalqımız, həm də dünya azərbaycanlıları tərəfindən sevinclə qarşılandı. Bu, həm də Ermənistana, havadarlarına, bütövlükdə, dünya birliyinə tarixi Qələbəmizi, ərazi bütövlüyümüzün bərpa olunduğunu təsdiqləyən bir mesaj idi.***

İyirmi səkkiz il yarım işğal altında qalan Şuşa düşməndən azad edildi! Azərbaycanın dünya birliyindəki reytinqini daha da yüksəldən bu tarixi Qələbəni döyüş meydanında qazandıq. Hazırda dünyanın inkişaf etmiş dövlətləri də Azərbaycan Ordusnun Şuşanın azadlığı uğrunda göstərdiyi şücaəti, hərbi taktikanı öyrənir və bu əməliyyatların incəliklərini heyranlıqla araşdırırlar. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, reallaşdığı gündür! Bu Qələbə Ermənistan ordusunun güclü və qüvvətli olması barədə uydurduqları yalanları alt-üst etdi.

Dövlətimizin başçısı Şuşanın azad edilməsi müjdəsini xalqa xəbər verərkən də bildirmişdi ki, Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik: "30 ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyirdi, status-kvonu möhkəmləndirmək, əbədi etmək niyyətində idi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik".

Prezident, Ali Baş Komandan İlham Əliyev dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdi ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Bu tarixi Qələbəni möhtərəm Prezidentimizin rəhbərliyi ilə rəşadətli ordumuz döyüş meydanında qazandı. Söz yox ki, şəhidlər verərək bu Qələbəni qazandıq. Tarix də sübut edir ki, müharibə qansız-qadasız, dağıntısız, itkisiz başa çatmır. Buna baxmayaraq, şəhidlərimizin qanı yerdə qalmadı. Düşmən darmadağın edildi və bu şanlı Qələbədən cəmi iki gün sonra kapitulyasiya aktını imzalamağa məcbur edildi.

Hazırda Şuşada, bütövlükdə, Qarabağda genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. 30 illik işğaldan sonra, nəhayət, 2021-ci il avqustun 30-da Şuşada böyük Azərbaycan şairi, dövlət xadimi Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışı keçirildi. Bu ərəfədə Şuşadakı Yaradıcılıq Mərkəzində "Yaddaş. Fotoqrafik tarix", Rəsm Qalereyasında "Qarabağ – Azərbaycan mədəniyyətinin incisidir" və Xalçaçılıq Qalereyasında "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" adlı sərgilər təşkil edildi. Dünyada böyük əks-səda doğuran "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı və digər tədbirlər düşmənə və havadarlarına gözdağı oldu.

Bu gün artıq Şuşada böyük işlər görülü və bu, Şuşa şəhərinin baş planı əsasında reallaşır. Baş plan hazırlanarkən Şuşanın tarixi əzəmətinin qorunması əsas götürülüb. Görülən işlər Şuşanın dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəyinə əminlik yaradır. Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Bütün bunlar düşmən üzərində qazandığımız şanlı Qələbənin bariz nümunəsidir. Qarabağ Azərbaycandır!

***Mehman İSMAYILOV,***
***politoloq***

Xalq qəzeti.- 2022.- 12 yanvar.- S.4.